# BAKI DÖVLƏT UNİVERSİTETİ

---

## 2020-ci ildəSosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə kafedrasında elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərininnəticələrinin

# HESABATI

| | |
|---|---|
| **Mövzunun adı:** | **Dünyanın müasir elmi mənzərəsinin fəlsəfi əsasları** |
| **Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** | **Pənahova Kəmalə Həsən qızı** |
| **Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** | **31 dekabr 2020-ci il - 31 dekabr 2021-ci il** |

**Bakı - 2020**

**Mövzu üzrə icraçılar haqqında məlumat (rəhbər daxil olmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Struktur | Vəzifəsi | Ştat vahidi | Elmi adı və dərəcəsi |
|---|---|---|---|---|---|
| 1. | Pənahova Kəmalə Həsən qızı | Fəlsəfə kafedrası | Kafedra müdiri | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 2. | Məmmədov Əziz Bəşir oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru |
| 3. | Hacıyev Zeynəddin Camal oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru |
| 4. | Əfəndiyev Fikrət Məhəmməd oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru |
| 5. | Həsənova Pərvin Əhməd qızı | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 6. | Tağıyev Arif İslam oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 7. | Namazova Aybala Firudin qızı | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 8. | Əlizadə Bilal Xudabaxış oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 9. | Məmmədov Hüseyn Qaraxan oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 10. | İslamov İslam Əhmədağa oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 11. | Mikayılova Nərminə Eldar qızı | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 12. | Yusifova Gülnarə Yusif qızı | Fəlsəfə kafedrası | Baş müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 13. | Allahverdiyev Azər Muxtar oğlu | Fəlsəfə kafedrası | Baş müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 14. | Məcidova Nərgiz Həmid qızı | Fəlsəfə kafedrası | Müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 15. | Kərimova Nəzakət İsfəndiyar qızı | Fəlsəfə kafedrası | Müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 16. | Hüseynli Oktay Hüseyn oğlu | Fəlsəfə kafedrası | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 17. | Hüseynov Elmar Nəbi oğlu | Fəlsəfə kafedrası | Müəllim | 1 | - |
| 18. | Kərimova Aygün Xəlil qızı | Fəlsəfə kafedrası | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru |

| | |
|---|---|
| **1** | **Mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*(plan üzrə mövzunun aktuallığı və məqsədi göstərilməklə və 2 səhifədən çox olmamaqla)* |
| | **İş 1. “Mistisizm mədəni-tarixi fenomen kimi” - f.ü.f.d., dos. Kəmalə Həsən qızı Pənahova -** Dünyanın müasir elmi mənzərəsində rasional biliklər əsas yer tutur. Lakin bu mənzərəyə əks vektorda intuitiv, irrasional mistik bilik durur. Mistika mənəvi mədəniyyətin universal fenomeni kimi Mən ilə Mütləqin xüsusi əlaqəsinin aparıcı olduğu dünyanın xüsusi mənzərəsini formalaşdırır. Öz tərəfdarları üçün mistika dünyagörüşü və dünyaoriyentasiyaedici funksiya reallaşdıra bilir, mistik təcrübədən çıxış edərək, hadisələrə özünəməxsus, sirli məna verir. Ezoteriyanın nailiyyətlərini ön plana qoyaraq, o dəyərlər sisteminə nüfuz edir. Bu dünyagörüşü əsasında mistika təfəkkür tərzinə və şəxsiyyətin davranışına da təsir edir, mistik təsəvvürlərə inananlar arasında requlyativ və kommunikativ funksiya yerinə yetirir. Mistikanın daimi mövcudluğunun səbəbi idrak prosesinin sonluzluğu ilə əlaqədardır. Ona görə ki, rasional yolla dərkolunmaz, müəyyən mənada ona görə də sirli qalan hadisələrin mövcudluğu mistikanın mövcudluğu üçün potensial imkan yaradır. Adətən cəmiyyətin təbii, sosial, elmi həyatında baş verən gərgin və stres yaradan, çıxılmaz vəziyyətlər mistikanın mövcudluğu üçün həmişə əlverişli zəmin rolunu oynayır.<br><br>**İş 2. “İntuisiya və onun idraki funksiyası” - f.ü.e.d., prof. Əziz Bəşir oğlu Məmmədov** – Elmi-tədqiqat işi epistemologiyanın nisbətən az işlənmiş problemlərindən olan intuisiyanın məntiqi-qnoseoloji təhlilinə həsr olunmuşdur. Bu problemin təhlilində müəyyən çətinliklər yaradan başlıca səbəblərdən biri, fikrimizcə intuisiyaya həsr olunmuş elmi-fəlsəfi ədəbiyyatlarda problemin yalnız şüuraltı problem kimi öyrənilməsidir. Halbuki, intuisiya probleminə daha qlobal yanaşılması belə bir həqiqəti aşkara çıxarır ki, həmin problem şüuraltı qavrayışlardan çıxarılan fenomen kimi deyil, həm də hissi idrak və fövqəlşüurla bağlı problem kimi öyrənilməlidir. Bu fikrə söykənən müəllif belə bir qənaətə gəlir ki, hissi şüurda hissi intuisiya, fövqəlşüurda isə intellektual intuisiya fəaliyyət göstərir.<br>**İş 3. “Təbii-elmi biliklərin aksioloji aspekti” - f.ü.e.d., prof. Zeynəddin Camal oğlu Hacıyev** – Yazıda öncə qeyd olunur ki, təbii-elmi idrakın aksioloji səpkisi fəlsəfi refleksiyanın tarixində daim bu və ya digər dərəcədə müzakirə obyekti olmuşdur. Müasir dövrdə isə elmi biliklərin sürətli inkişafı, onun böyük uğurları ilə yanaşı törətdiyi mənfi ekoloji və antropoloji təhlükələr həmin problemin aktuallığını daha da artırır. Bununla əlaqədar olaraq təbii-elmi biliklərin koqnitiv və praksioloji yönümü ilə yanaşı aksioloji aspektinə də diqqət yetirməyin zəruriliyi əsaslandırılır. Elmi-tədqiqat işində təbii-elmi biliklər ilə dəyərlərin münasibətlərini əhatə edən başlıca istiqamətlər nəzərdən keçirilir. Belə bir məqam xüsusi vurğulanır ki, müasir təbii-elmi kəşflərin insan ölçüləri baxımından qiymətləndirilməməsi onların humanist aksioloji səpkilərinə lazımi diqqət yetirilməməsi, cəmiyyət və bəşəriyyət üçün təhlükələr törədə bilir.<br><br>**İş 4. “Dünyanın elmi mənzərəsinin yaradılmasında fəlsəfənin metodoloji funksiyası” - f.ü.e.d., prof. Fikrət Məhəmməd oğlu Əfəndiyev** – Elm, ilk növbədə, tarixi inkişaf prosesində inkişaf etmiş biliklər sistemidir. Bu bilik sistemi məntiqi qaydada qurulur və sosial təcrübə zamanı daim yenilənir. Elm işləyən kütlələrin istehsal və praktiki fəaliyyəti əsasında yaranır və inkişaf edir və tarixin hər bir mərhələsində bu dövrdə əldə edilmiş təbiət və cəmiyyət qanunlarından xəbərdarlıq səviyyəsini əks etdirir. Elm mühərriki, elmi inkişaf ehtiyacı, bir nəzəriyyənin məntiqi və deduktiv inkişafı deyil, hər şeydən əvvəl maddi istehsalın, texnologiyanın inkişaf ehtiyaclarıdır. Elmin inkişafının məntiqi insanların istehsal və əməli fəaliyyəti, düşüncə metodlarının inkişaf dərəcəsi, təcrübə səviyyəsi ilə müəyyən edilir. Bu məqalə bu həqiqətləri səciyyələndirməyə və təhlil etməyə çalışır və dünyanın elmi |

mənzərəsinin inkişafında fəlsəfənin metodik funksiyasının rolunu göstərir.

**İş 5. “Dünyanın elmi mənzərəsində empirik və nəzəri biliyin vəhdəti” - f.ü.f.d., dos. Pərvin Əhməd qızı Həsənova –** Elmi-tədqiqat işində epistemologiyanın nisbətən az işlənmiş problemlərindən biri olan dünyanın elmi mənzərəsi sistemində empirik və nəzəri biliyin vəhdəti, onların mahiyyəti və nəzəri-idraki əhəmiyyətinin təhlili nəzərdə tutulmuşdur.

Nəzərdə tutulmuş məqsədin reallaşması üçün bu sahədə yeni fəlsəfi ədəbiyyatdan istifadə edilmiş, bir tərəfdən empirik və nəzəri biliyin mahiyyəti, digər tərəfdən empirik və nəzəri biliyin vəhdətinin fəlsəfi məqamlarının sistem, struktur səviyyələri və istifadə olunan metodları təhlil olunmuşdur.

Elmi-tədqiqat işində maraqlı cəhət ondan ibarətdir ki, dünyanın elmi mənzərəsinin müasir fəlsəfi obrazı yaradılmışdır.

**İş 6. “Mədəniyyətin inkişafında tarixilik və varislik” - f.ü.f.d., dos. Arif İslam oğlu Tağıyev** – Elmi-tədqiqat işi mədəniyyətin inkişafında tarixiliyin və varisliyin tədqiqinə həsr olunmuşdur. Mədəniyyətin sadədən mürəkkəbə doğru inkişaf tarixi «varislik» deyilən ənənə üzərində mümkün olmuşdur. Bu, bəşəriyyətin daş çapacaqdan başlamış müasir kompüterə, qayaüstü rəsmlərdən başlamış məşhur təsviri sənət nümunələrinin yaranmasına, yaxud primitiv insan sürülərinin düşünülmüş,sistemli dövlət quruluşunadək keçdiyi tarixi mədəni inkişaf yoludur ki, bunun da əsasını varislik təşkil edir. Geniş mənada varislik yeni keyfiyyətə xüsusiyyətlər əlavə etməklə mədəniyyətin zamandan-zamana ötürülməsi deməkdir. Bu ötürülmə prosesi mənəvi və maddi sərvətlərin mexaniki surətdə istifadə edilərək çatdırılması deyil, onların nəsillər tərəfindən qiymətləndirilərək, yeni təcrübələr əlavə etməklə yeniləşdirilərək təkmilləşdirilməsi formasında ötürülməsi deməkdir. Varislik əcdadlarımızın irsi dəyərlərinin tənqidi təhlili, yaradıcı dəyişdirilməsi formasında çatdırılması deməkdir. Bir çox minilliklər bu varisliyin ötürülməsinə xidmət edən sosial institutlar fəaliyyət göstərmişdir. Müasir günümüzdə belə mədəniyyət müəssisələri məktəb, universitet, elmi-tədqiqat mərkəzləri, muzey, kitabxana və s.-dir. Onlar həm də mədəni dəyərlərin qoruyucusu və ötürücüləridir.

**İş 7. “Dünyanın müasir elmi mənzərəsində empirik və nəzəri biliklərin qarşılıqlı əlaqəsi” - f.ü.f.d., dos. Aybala Firudin qızı Namazova –** Məlumdur ki, elmi biliklər özündə inkişaf edən elementlər sistemini ehtiva edir. Hər bir fənnin elmi biliklər sistemi heterogendir. Orada biliyin müxtəlif formalarına rast gəlmək olar: empirik faktlar, qanunlar, prinsiplər, hipotezlər, müxtəlif tipli və səviyyəli nəzəriyyələr və s. Bütün bu formalar elmi təşkilin iki müxtəlif səviyyələrinə aid olurlar: empirik və nəzəri. Müvafiq olaraq, bu bilikləri yaradan dərketmə prosesinin iki tipini fərqləndirmək olar.

Empirik və nəzəri idrak növləri tədqiqat fəaliyyətinin həm metod, həm də vasitələrinə görə bir-birindən fərqlənirlər. Empirik idrakın metodları bunlardır: müşahidə, təsviretmə, eksperiment, ölçmə. Nəzəri idrakda isə xüsusi metodlar tətbiq edilir: ideallaşdırma, ideallaşdırılmış obyektlərlə fikri eksperiment, nəzəriyyənin qurulmasının xüsusi metodları (abstraktdan konkretə keçid, aksiomatik və hipotetikdeduktiv metodlar); məntiqi və tarixi tədqiqat metodları və b.

**İş 8. “Tarixi prosesin fəlsəfi anlamı” - f.ü.f.d., dos. Bilal Xudabaxış oğlu Əlizadə -** Elmi- tədqiqat işində tarixi prosesin fəlsəfi anlamı təhlil olunur. Elmi işdə qeyd olunur ki, tarix elmi cəmiyyətin keçmişini dərk etməyə çalışanda fəlsəfəyə çevrilir. Elmi – tədqiqat işində göstərilir ki, fəlsəfi tarix və ya tarix fəlsəfəsi “tarixə düşünərək yanaşmaq” deməkdir.

Tarixi prosesin fəlsəfi anlamı tarixi prosesə fəlsəfi baxışı nümayiş etdirmək, bu prosesi refleksiya etmək, yəni nəzəri mənalandırmaqdır. Müəllif elmi–tədqiqat işində G.Hegelin, K.Marksın, O.Spenqlerin, A.Toynbinin və başqa filosofların nəzəri irsindən

| | |
|---|---|
| | yararlanmışdır.<br>Elmi işdə müəllif göstərir ki, tarix fəlsəfəsi ilə G.Hegel daha geniş məşğul olmuşdur. O, "Ümumdünya tarixi" terminini qurmuşdur və bu anlayış adı altında o, tarix fəlsəfəsini başa düşürdü.<br>Elmi-tədqiqat işində müəllif göstərir ki, tarixi proses son dərəcə geniş, əhatəli və rəngarəng xarakter daşıyır. Buraya hər şey daxil olur, müxtəlif tarixi dövrlərdə baş verən çevrilişlər, siyasi intriqalar və çəkişmələr, ayrı – ayrı sivilizasiyaların çiçəklənməsi və məhv olması növləri və hər bir ailənin və fərdin gündəlik həyatları və milyonlarla digər məzmunlu dəyişikliklər daxil olur. Tarix elmi böyük hadisələrin tarixi, bu həmişə müəyyən bütövlüyün tarixidir və tarix elmi bu bütövlüyün mənasını dərk etməyə çalışanda, o, fəlsəfəyə çevrilir.<br>**İş 9. "Dünyanın elmi mənzərəsi və təbiətşünaslığın inkişaf mərhələləri" - f.ü.f.d., dos. Hüseyn Qaraxan oğlu Məmmədov –** Elmi-tədqiqat işi müasir dövrün ən aktual problemlərindən birinə həsr olunmuşdur. İlk növbədə "dünyanın elmi mənzərəsi" anlayışının mahiyyəti, onun elmə gətirilməsi göstərilmişdir. Sonra isə, dünyanın elmi mənzərəsi sahəsində aparılan elmi tədqiqatlar təhlil olunmuşdur. Dünyanın ilk fəlsəfi mənzərəsindən başlayaraq müasir dövrə qədər mövcud olan nailiyyətlər qeyd olunmuşdur. Dünyanın elmi mənzərəsinin izahında fizikanın rolu xüsusilə göstərilmiş və cansız, canlı və cəmiyyətin dünyanın elmi mənzərəsinin obyekti olduğu izah edilmişdir.<br>Dünyanın elmi mənzərəsinin izahı təbiətşünaslığın inkişafı ilə sıx əlaqəlidir. Ona görə də məhz elmi işin ikinci hissəsi təbiətşünaslığın inkişaf mərhələlərinə həsr olunmuşdur. Təbiətşünaslıq ən qədim dövrdən başlasa da müasir elmi ədəbiyyatlarda onun inkişafında üç mərhələ qeyd olunur. Təbiətşünaslığın keçdiyi üç inkişaf mərhələsi elmi işdə belə göstərilmişdir : 1) Təbiətşünaslığın klassik mərhələsi, 2) Təbiətşünaslığın qeyri-klassik mərhələsi, 3) Təbiətşünaslığın inkişafının müasir mərhələsi. Bu mərhələlərin hər biri elmi işdə geniş şəkildə işıqlandırılmışdır.<br>**İş 10. "İctimai inkişafın dinamikası" - f.ü.f.d., dos. İslam Əhmədağa oğlu İslamov** – İctimai inkişaf konsepsiyası dünyanın elmi ictimaiyyəti və ümumilikdə, cəmiyyət tərəfindən dəstəklənir, davamlı inkişaf prinsipləri praktikada geniş miqyasda tətbiq olunur. Konsepsiya dayanıqlı inkişafın 3 təməl prinsipi - iqtisadi artım, sosial irəliləyiş və ətraf mühitin dayanıqlılığı üzərində qurulmuş və inkişafa qarşı mövcud maneələri aradan qaldırmaq üçün vahid yanaşmanın əhəmiyyətini xüsusi olaraq vurğulayır. İctimai inkişaf konsepsiyası üç əsas məqsədin sistemə birləşməsi nəticəsirdə əmələ gəlib: iqtisadi, sosial və ekoloji. Bu elementlərin qarşılıqlı fəaliyyəti davamlı inkişafının vəzifələrini müəyyən edir. Burada söhbət, müasir cəmiyyətin dəyərlərinin və məqsədlərinin, insan fəaliyyətinin müxtəlif sferalarının istiqamət və məzmunun köklü şəkildə dəyişdirilməsi əsasında bəşər inkişafının yeni çağa (epoxaya) keçməsindən gedir. Çiçəklənmə, ədalət və sağlam çevrə (ətraf mühit) insanın daha yaxşı gələcək barədə arzularını ifadə edir. Davamlı inkişaf, düzgün seçim və düzgün siyasət vasitəsi ilə bu arzunun həyata keçirilməsin mümkün edir. Beləliklə, cəmiyyətin inkişaf dinamikasinin mənası bəşəriyyətin qeyri müəyyən uzun müddət var olması şərtlərini müəyyənləşdirməkdən ibarətdir. Bunun üçün insanların tələbatının elə şəkildə təmin olunması nəzərdə tutulur ki, bu biosferanın deqradasiyasına, gələcək nəsillərin maraqlarının sıxışdırılmasına gətirib çıxarmasın. Elmi tətqiqat işində eyni zamanda vurgulanir ki, ictimai inkişafin dinamikasi təbiətlə six əlaqədə götürmək lazimdir.<br>Beləliklə demək olar ki, hazırda bəşəriyyət təbiətlə qarşılıqlı əlaqənin elə səviyəsinə çatmışdır ki, hələ regional və qlobal səviyədə ekoloji dəyişiklikləri saxlamaq mümkündür. Bunun üçün müxtəlif ölkələrin qüvvəsinin birləşdirilməsi, yaranmış vəziyyətin hərtərəfli tədqiqi, davamlı inkişaf strategiyası əsasında vacib olan təcrübi tədbirlərin həyata keçirilməsi lazımdır.<br>**İş 11. "Yaradıcılıq: strukturu və mahiyyəti" - f.ü.f.d., dos. Nərminə Eldar qızı** |

| | |
|---|---|
| | **Mikayılova** – Yaradıcılıq mövzusu müasir fəlsəfədə ən aktual mövzulardan biridir. Yaradıcılıq fenomeni paradokslarla zəngindir və yaradıcı insanın şəxsiyyəti ilə bağlıdır. Yaradıcılıq ən çox incəsənətdə reallaşır, yaradıcılığın elementləri həmçinin ictimai həyatda da mövcuddur. Yaradıcı fəaliyyətin əsas növləri bədii, elmi, texniki hesab edilir. Bundan başqa, sosial, fəlsəfi, pedaqoji, siyasi, ideoloji və digər növləri də vardır.<br>İnsanın yaradıcı fəaliyyətinin əhəmiyyəti onun cəmiyyətin mədəni dinamikasına istiqamətlənməsi ilə müəyyən edilir. Yaradıcılıq mədəniyyətin inkişaf mənbəyidir və sosial-mədəni şərtlərlə müəyyənləşir. Sosiomədəni fenomen kimi yaradıcılığın mahiyyətini cəmiyyət tərəfindən tələbatın yaranması və buna müvafiq olaraq keyfiyyət yeniliklərinin meydana gəlməsi təşkil edir. Cəmiyyətin və mədəniyyətin inkişafı sonsuz xarakter daşıyır, belə ki, inkişafın hərəkətverici qüvvəsini mədəniyyətyaradıcı mahiyyətə malik yaradıcı fəaliyyət təşkil edir.<br><br>**İş 12. “Hipotez – elmi rasionallığın komponenti kimi” - f.ü.f.d., b/m Gülnarə Yusif qızı Yusifova** – Hər bir elm qarşısında duran vəzifələrdən asılı olaraq müxtəlif metodlardan istifadə edir. Elmi metodların özünəməxsusluğu ondan ibarətdir ki, onlar problemin tipindən deyil, elmi tədqiqatın səviyyə və dərinliyindən asılıdır. Bu da öz növbəsində onların elmi-tədqiqat proseslərində onların rolundan asılıdır. Başqa sözlə, hər bir elmi-tədqiqat prosesində metodların müxtəlif növləri dəyişilir. Bununla əlaqədar olaraq, elmi idrakın xüsusi formaları (tərəfləri) meydana gəlir ki, bunlardan ən vacibləri empirik və nəzəridir. Hipotetik bilik etibarlı deyil, ehtimali xarakter daşıyır və əsaslandırma, yoxlama tələb edir. Sübut gedişində irəli sürülən hipotezlərdən biri həqiqi nəzəriyyəyə, digəri yanılmaya çevrilir.<br>Mendeleyevin dövri qanunu, Darvinin nəzəriyyəsi və s. hipotez mərhələsindən keçmişdir. Hipotezin həqiqiliyinin yoxlanmasının əsas üsulu praktikadır (bu zaman həqiqətin məntiqi meyarı mühüm rol oynayır). Yoxlanılmış və sübut edilmiş hipotez etibarlı, həqiqi məna qazanır və elmi nəzəriyyəyə çevrilir.<br>**İş 13. “Modelləşdirmə və onun elmi idrakda rolu” - b\m. Azər Muxtar oğlu Allahverdiyev –** Elmi–tədqiqat işi modelləşdirmə metodunun mahiyyəti və onun elmi idrakda rolu və yeri probleminin fəlsəfi – qnoseoloji təhlilinə həsr olunmuşdur. Tədqiqat işində modelləşdirmə prosesinin üç elementdən – subyekt (tədqiqatçı), tədqiqat obyekti və dərk edən subyekt ilə dərk olunan obyektin qarşılıqlı əlaqəsini əks etdirən modeldən ibarət olması vurğulanır. Modelləşdirmənin əsasını təşkil edən model tədqiqat obyektini əks etdirən və ya onu əvəz edən sistem kimi nəzərdən keçirilir. Model anlayışının məzmunu açıqlanır və onun səciyyəvi xüsusiyyətləri göstərilir. Modellərin müxtəlif əsaslara görə təsnifatı, modelləşdirmə prosesi üçün səciyyəvi olan mərhələlər və modelləşdirmənin növləri ilə baglı məsələlər nəzərdən keçirilir.<br>**İş 14. “Qeyri-səlis məntiq anlayışlarının tətbiqi” - f.ü.f.d., müəl. Nərgiz Həmid qızı Məcidova** –Elmi işdə qeyri-səlis məntiqi nəzəriyyəsinin anlayışlarının tətbiqi məsələsi nəzərdən keçirilir. Qeyri-səlislik anlayışının ümumelmi xarakteri, onun fəlsəfi biliyin ontoloji, epistemoloji və məntiqi aspektləri ilə ümumiliyində və fəlsəfi kateqoriyalarla sıx əlaqəsində özünü göstərir. Qeyri-səlisin ümumelmi kateqoriya kimi qəbul edilməsi "fazzyologiya" nı tədqiqatların yeni fənlərarası sahəsi kimi müəyyənləşdirməyə imkan verir. Bu da öz növbəsində qeyri-səlisliyi dünyanın dərki və yenidən qurulması üçün yeni imkanlar açan, onu obyektiv aləmin universal reallığı kimi qəbul edən, elmin inkişafının metodoloji meyllərinə uyğun gələn yeni ümumiləşmiş metodologiyanın qurulmasına əhəmiyyətli dərəcədə istiqamətlənir.<br>**İş 15. “Tarixi hadisələrin şərhində anarxizm” - f.ü.f.d., müəl. Nəzakət İsfəndiyar qızı Kərimova –** Tarixi prosesin izahında iki metodoloji yanaşma özünü göstərir. Onlardan biri monist, digəri isə plüralist yanaşma adlanır. Monist yanaşma adından göründüyü kimi ictimai inkişafda vahid bir amilin (məsələn, iqtisadi amil və yaxud texniki amil) roluna böyük əhəmiyyət verir. Plüralist konsepsiya isə ictimai inkişafın |

səbəblərini müxtəlif amillərdə (məsələn, din, təbii mühit, əhali, kulturoloji və s.) görür. Monist və plüralist yanaşma çərçivəsində müxtəlif konsepsiyalar meydana gəlmişdir. Birinciyə Karl Marks tərəfindən yaradılmış formasiya təlimi və Uost Rostou tərəfindən yaradılmış postindustrial cəmiyyət nəzəriyyəsi daxildir.

Plüralist yanaşma eyni zamanda sivilizasion yanaşma adı ilə tanınır. Belə ki, o, ictimai inkişafın səbəbini müxtəlif amillərlə izah edir.

**İş 16. "Elmin inkişafının müasir metodoloji-requlyativ prinsipləri" – f.ü.f.d., müəl. Oktay Hüseyn oğlu Hüseynli –** Elmi-tədqiqat işi elmin inkişafının müasir metodoloji requlyativ prinsiplərinin araşdırılmasına həsr olunmuşdur. Burada öncə aşağıdakı ümumi metodoloji prinsiplər (elmi konsepsiyaların əsaslandırılması, sosial və praktiki əhəmiyyətliliyi, sübutluluğu, imkanlarının və tətbiqi hüdudlarının dəqiqləşdirilməsi, dünyagörüşü və humanitar mənasının açılması) təhlil olunur. Bununla yanaşı konkret elm sahəsinin metodoloji prinsipləri (elmi nəzəriyyələrin inkişafının fasiləsizliyi, onların informasiya tutumunun genişləndirilməsi, metodoloji plüralizmin tətbiqi, innovasyon yönümlüyünün gücləndirilməsi) nəzərdən keçirilir.

**İş 17. "Müasir neyro-fəlsəfədə elmi yanaşma və qeyri-rasional təsəvvürlər" – müəl. Elmar Nəbi oğlu Hüseynov –** Son dörd on ildə elm fəlsəfəsi getdikcə konkret elmlərin lokal tədqiqat sahələrinə daha da yaxınlaşmağa başlayıb. Qeyri-müəyyənliklər elmi praktikanın ümumi xüsusiyyətlərindən intizama xas olan anlayışlara, problemlərə və mürəkkəb "tapmacalara" keçdi. Koqnitiv və kompyusional nevrologiya şüur, fəaliyyət, bilik və normativliyin təbiəti daxil olmaqla, humanitar elmlərdə ənənəvi olaraq nəzərdən keçirilən məsələlərə birbaşa müdaxilə etməyə davam edir. Heyvanlar üzərində aparılan tədqiqat modellərindən istifadə edərək hüceyrə, molekulyar və biheyvioral neyro-elmlər getdikcə idrak prosesini neyro-elmlərin tədqiqat sahəsinə daha da yaxınlaşdırır. Beynin quruluşu və funksiyasına dair empirik kəşflər, mücərrəd fəlsəfi mülahizələrdən kənara çıxaraq "təbii" neyro-psixi-proqramlar vasitəsilə daha ətraflı inkişaf etməyin və dərk etməyin yollarını təklif edir.

Praktik irrasionallıq insanın qeyri-məntiqi düşüncə vasitəsilə nə edəcəyinə qərar vermək qabiliyyətidir. Bu cür düşüncə ən azı iki mənada praktik ola bilər. Birincisi, düşüncənin özü ilə praktikdir, çünki praktik davranış ilə əlaqəlidir. Digər tərəfdən isə irrasional düşüncə öz müqəddəratını təyinetmə qabiliyyətimiz aspektindən iki fəlsəfi problem qaldırır. Birincisi, irrasional mülahizənin özündə hər hansı bir şeyin necə praktik ola biləcəyi barədə çoxlu suallar ehtiva edilir. İkincisi, nümunə kimi istifadə edilən standartların məzmunu ilə bağlı böyük problemlər var. Məsələn, subyekt olaraq məcburi olan hərəkətləri qiymətləndirmə normaları hansılardır? Hansı şərtlər daxilində əxlaq normaları davranış barəsində düşünmək üçün etibarlı standartlara gətirib çıxarır?

**İş 18. "Müasir dünyada dinin mənzərəsi" – f.ü.f.d., müəl. Aygün Xəlil qızı Kərimova –** Müasir dünyamız qloballaşma şəraitində öz təsir gücünü artıran, inkişaf edən dar, məhdud empirik idrak çərçivəsindən daha əhatəli, eyni zamanda çox ziddiyyətli, həm də hərtərəfli və dərin nəzəri ümumiləşdirmələrə doğru yönələn böyük dəyişikliklər və elmi nailiyyətlərin dünyasıdır. Bu proses müasir sosial-mənəvi tərəqqinin mühüm sahəsi olan mədəniyyət və sivilizasiyalar və dinlə də bilavasitə bağlıdır. Din ictimai şüur formalarından biri; bir və ya bir neçə ilahi varlığın, müqəddəslərin, yəni fövqəltəbiliyin bu və ya digər növünün reallığına inamı əsas götürən dünyagörüşü, davranış və spesifik fəaliyyətidir". Şəxsiyyətin özünün reallaşması və dərki ilk əvvəl onun şüur səviyyəsi, həyatın mənası haqqında inamı və təsəvvürü, ümumi mədəniyyəti, əxlaqı, ləyaqəti, bir sözlə şəxsiyyətin mənəvi dünyasını səciyyələndirən bütün keyfiyyətlərlə şərtlənir. Bu baximdan din insanın inkişafı sosial-mənəvi keyfiyyətləri kimi çıxış etməsində xüsusi rol oynayır. Müasir dünyada din xalqların, cəmiyyətin formalaşmasındakı oynadığı rol təkzibedilməzdir. Mənəvi dəyərlərin təkmilləşməsindəki rolu ilə bərabər dini siyasətə alət edən bəzi

| | |
|---|---|
| | ünsürlər və ya təşkilatlar dinin müasir mənəzərəsini müsbət və mənfi çalarlarda dəyişməyə müvəffəq ola bilirlər. |
| **2** | **Hesabat dövründə alınmış elmi nəticələr, onların yenilik dərəcəsi**<br>*(nəticələr səlis və konkret yazılmalıdır)* |
| | 1. Mistisizmin mənəvi mədəniyyətin universal fenomeni kimi daimi mövcudluğunun səbəbi idrak prosesinin sonluzluğu ilə əlaqədardır. Cəmiyyətin təbii, sosial, elmi həyatında baş verən gərgin və stres yaradan, çıxılmaz vəziyyətləri mistikanın mövcudluğu üçün həmişə əlverişli zəmin rolunu oynayır.<br>2. İntuisiya problemişüuraltı qavrayışlardan çıxarılan fenomen kimi deyil, həm də hissi idrak və fövqəlşüurla bağlı problem kimi öyrənilməlidir. Hissi şüurda hissi intuisiya, fövqəlşüurda isə intellektual intuisiya fəaliyyət göstərir.<br>3. Müasir təbii-elmi kəşflərin insan ölçüləri baxımından qiymətləndirilməməsi onların humanist aksioloji səpkilərinə lazımi diqqət yetirilməməsi, cəmiyyət və bəşəriyyət üçün təhlükələr törədə bilər.<br>4. Elmin inkişafının məntiqi insanların istehsal və əməli fəaliyyəti, düşüncə metodlarının inkişaf dərəcəsi, təcrübə səviyyəsi ilə müəyyən edilir.<br>5. Dünyanın elmi mənzərəsinin müasir fəlsəfi obrazının yaradılması üçün empirik və nəzəri biliyin vəhdətdə götürülməsi vacib şərtlərdən biridir.<br>6. Mədəniyyətin sadədən mürəkkəbə doğru inkişaf tarixi «varislik» deyilən ənənə üzərində mümkün olmuşdur. Varislik əcdadlarımızın irsi dəyərlərinin tənqidi təhlili və yaradıcı dəyişdirilməsiformasında çatdırılması deməkdir.<br>7. Elmi biliklər özündə inkişaf edən elementlər sistemini ehtiva edir. Hər bir fənnin elmi biliklər sistemi heterogendir. Empirik və nəzəri idrak növləri tədqiqat fəaliyyətinin həm metod, həm də vasitələrinə görə bir-birindən fərqlənirlər.<br>8. Tarixi prosesin fəlsəfi anlamı tarixi prosesə fəlsəfi baxış nümayiş etdirmək, bu prosesi refleksiya etmək, yəni, nəzəri mənalandırmaqdır. Tarix elmi cəmiyyətin keçmişini dərk etməyə çalışanda fəlsəfəyə çevrilir. Fəlsəfi tarix və ya tarix fəlsəfəsi “tarixə düşünərək yanaşmaq” deməkdir.<br>9. Dünyanın elmi mənzərəsinin izahı təbiətşünaslığın inkişafı ilə sıx əlaqəlidir. Dünyanın elmi mənzərəsinin tam yaradılması üçün təbiətşünsalığın keçdiyi üç tarixi mərhələnin (klassik, qeyri-klassik və müasir mərhələ) təhlili vacibdir.<br>10. İctimai inkişaf konsepsiyası dayanıqlı inkişafın 3 təməl prinsipi - iqtisadi artım, sosial irəliləyiş və ətraf mühitin dayanıqlılığı üzərində qurulmuş və inkişafa qarşı mövcud maneələri aradan qaldırmaq üçün vahid yanaşmanın əhəmiyyətini xüsusi olaraq vurğulayır.<br>11. Yaradıcılıq mədəniyyətin inkişaf mənbəyidir və sosial-mədəni şərtlərlə müəyyənləşir. Sosiomədəni fenomen kimi yaradıcılığın mahiyyətini cəmiyyət tərəfindən tələbatın yaranması və buna müvafiq olaraq keyfiyyət yeniliklərinin meydana gəlməsi təşkil edir.<br>12. Elmi metodların özünəməxsusluğu elmi tədqiqatın səviyyə və dərinliyindən asılıdır.Hipotetik bilik etibarlı deyil, ehtimali xarakter daşıyır və əsaslandırma, yoxlama tələb edir. Sübut gedişində irəli sürülən hipotezlərdən biri həqiqi nəzəriyyəyə, digəri isə yanılmaya çevrilir.<br>13. Modelləşdirmə prosesi üç elementdən – subyekt (tədqiqatçı), tədqiqat obyekti və dərk edən subyekt ilə dərk olunan obyektin qarşılıqlı əlaqəsini əks etdirən |

| | |
|---|---|
| | modeldən ibarətdir. Modelləşdirmənin əsasını təşkil edən model tədqiqat obyektini əks etdirən və ya onu əvəz edən sistemdir.<br>14. Qeyri-səlisin ümumi bir elmi kateqoriya kimi tanınması, "fuzzyologiya" nı elmin inkişafındakı metodoloji tendensiyalara uyğun gələn yeni bir fənlərarası tədqiqat sahəsi olaraq təyin etməyə imkan verir,bu da dünyanın idrak və transformasiyası üçün yeni imkanlar yaradır.<br>15. Tarixi prosesin izahında iki metodoloji yanaşma özünü göstərir:monist yanaşma ictimai inkişafda vahid bir amilin (məsələn, iqtisadi amil və yaxud texniki amil) roluna,plüralist konsepsiya isə ictimai inkişafın səbəblərinin müxtəlif amillərlə (məsələn, din, təbii mühit, əhali, kulturoloji və s.) izahına əhəmiyyət verir.<br>16. Elmin inkişafında müasir metodoloji requlyativ prinsiplərin - elmi konsepsiyaların əsaslandırılması, sosial və praktiki əhəmiyyətliliyi, sübutluluğu, imkanlarının və tətbiqi hüdudlarının dəqiqləşdirilməsi, dünyagörüşü və humanitar mənasının açılması - əhəmiyyəti böyükdür.<br>17. Koqnitiv və kompyusional nevrologiya şüur, fəaliyyət, bilik və normativliyin təbiəti daxil olmaqla, humanitar elmlərdə ənənəvi olaraq nəzərdən keçirilən məsələlərə birbaşa müdaxilə etməyə davam edir. Heyvanlar üzərində aparılan tədqiqat modellərindən istifadə edərək hüceyrə, molekulyar və biheyvioral neyro-elmlər getdikcə idrak prosesini neyro- elmlərin tədqiqat sahəsinə daha da yaxınlaşdırır.<br>18. Din ictimai şüur formalarından biri; bir və ya bir neçə ilahi varlığın, müqəddəslərin, yəni fövqəltəbiliyin bu və ya digər növünün reallığına inamı əsas götürən dünyagörüşü, davranış və spesifik fəaliyyətidir”. Şəxsiyyətin özünün reallaşdırması və dərki ilk əvvəl onun şüur səviyyəsi, həyatın mənası haqqında inamı və təsəvvürü, ümumi mədəniyyəti, əxlaqı, ləyaqəti, bir sözlə şəxsiyyətin mənəvi dünyasını səciyyələndirən bütün keyfiyyətlərlə şərtlənir. |
| **3** | **Ən mühüm elmi nəticələr**<br>*(nəticələr səlis və konkret yazılmalıdır)* |
| | |
| **4** | **Mövzunun yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar** |
| | 1. Ümumiləşdirmə metodu.<br>2. Müqayisəli təhlil metodu.<br>3. Sistemlilik metodu.<br>4. Tarixi yanaşma metodu. |
| **5** | **Mövzu üzrə məqalələr**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilib; məqalələrin surətləriniəlavə etməli; internetdəki mənbənin linki göstərilməlidir)* |
| | 1. Əziz Məmmədov. “Ümumi nisbilik nəzəriyyəsinə müasir baxış” . Azərbaycan Texniki Universitetinin elmi əsərləri. № 3, Bakı – 2020, səh. 220-230 (məqalə).<br>2. Əziz Məmmədov. “Lütfizadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin G.Kantorun çoxluqlar nəzəriyyəsi ilə qarşılıqlı əlaqəsinin məntiqi-qnoseoloji təhlili ”. Təbiət, ictimai-siyasi və humanitar elmlərin inteqrasiyasının elmi-metodoloji əsasları. AMEA-nın Fəlsəfə institutu. Bakı – 2020, səh. 147-169 (məqalə).<br>3. Zeynəddin Hacıyev. “Əlilliyin sosial-fəlsəfi mahiyyəti, yaranma səbəbləri və |

| | |
|---|---|
| | reabilitasiyası” // Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış № 26 (I hissə). Bakı – 2020, səh. 114-124 (məqalə).<br>4. Fikrət Əfəndiyev, İslam İslamov. «К вопросу о строение научного процесса познания» // Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış № 26 (I hissə). Bakı – 2020, səh. 239-244 (həmmüəlliflə birgə, məqalə).<br>5. Aybala Namazova. “Человек, смысл его существования и модели времени” // Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış № 26 (I hissə). Bakı – 2020, səh. 47-54 (məqalə).<br>6. Bilal Əlizadə. “Tarix fəlsəfəsi: formalaşması və inkişafı” // Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış № 26 (I hissə). Bakı – 2020, səh. 74-79 (məqalə).<br>7. İslam İslamov. “Сущностные характеристики и особенности мультикультурализма” // Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış № 26 (I hissə). Bakı – 2020, səh. 229-236 (məqalə).<br>8. Gülnarə Yusifova. «Глобализация образования» // Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış № 26 (I hissə). Bakı – 2020, səh. 90-95 (məqalə).<br>9. Nəzakət Kərimova. "Jan Antuan Kondorse: ictimai inkişaf haqqında" // “Sosial və humanitar elmlərin müasir problemləri” jurnalı, 26-cı buraxılış (I hissə). Bakı - 2020. səh. 58-67 (məqalə). |
| **6** | **Mövzu üzrə monoqrafiyalar**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; kitabın çap olunduğu və ya çapa göndərildiyi qeyd olunmalıdır; kitabın üz qabığı, titul vərəqinin 1-ci və 2-ci səhifəsi, mündəricat və buraxılış məlumatlarının verildiyi səhifələrin surətləri əlavə edilməlidir)* |
| | 1. Əziz Məmmədov. “Qanun kateqoriyası müasir elmi biliklər sistemində”. Bakı, “Eko trinc”, 2020, 300 səh. (20 ç.v., monoqrafiya).<br>2. ElmarHüseynov. Logic (2020) Publishing House: “Eco-print Publishing and Advertising Company”, Baku, pp. 303. (19 ç.v. dərslik)<br>3. Elmar Hüseynov. Foundations of Philosophy (2020) Publishing House: “Eco-print Publishing and Advertising Company”, Baku, pp. 1071. (67 ç.v. dərslik)<br>4. Nərgiz Məcidova. “Социальные и биологические факторы в формировании личности» adlı dərslik. Bakı – 2020. |
| **7** | **Mövzu üzrə konfrans materialları**<br>*(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi qeyd olunmalıdır; materialların surətləri əlavə edilməlidir; internetdəki mənbənin linki göstərilməlidir)* |
| | 1. Kəmalə Pənahova. “Şərq peripatetiklərinin əsərlərində dövlət və idarəetmə problemləri”. Azərbaycanda müasir ərəbşünaslığın banisi, əməkdar elm xadimi, professor Ə.Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş “Şərqşünaslığın aktual problemləri” mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 18-19 dekabr, 2019-cu il, səh.245-247 (məqalə). |
| **8** | **Mövzu üzrə tezislər** |

| | |
|---|---|
| | *(müəlliflərin ad və familiyaları açıq şəkildə yazılmalıdır; tezisin dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi qeyd olunmalıdır; tezislərin surətləri əlavə edilməlidir; internetdəki mənbənin linki göstərilməlidir)* |
| | |
| **9** | **İxtira üzrə patentlər, səmərələşdirici təkliflər**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | **İxtiranın adı:**<br>**Patentin qeydiyyat nömrəsi:**<br>**Patentin sahibi:**<br>**Müəllif:** |
| **10** | **Mövzu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar)**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | |
| **11** | **Yerli və xarici həmkarlarla əlaqələr**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | 1. Kəmalə Pənahova. **“**Doğu peripatetizmi eğitiminde uygulanan metotlar hakkında”. Theory and practice in education. Science, Experience and Knowledge. Lambert Academic Publishing, 2019, s.225-330.<br>2. Əziz Məmmədov, Azər Allahverdiyev, Oktay Hüseynli. “Elmi biliyin əsaslandırılmasının məntiqi metodları və onların fəlsəfi-qnoseoloji təhlili” // Jurnalul umanitar modern. 2020, volum 3, № 3 (5). Republica Moldova. Səh. 29-34. (məqalə).<br>3. Fikrət Əfəndiyev. «Когнитивный подход и когнитивные исследования в свете философских размышлений»» // Вестник Дагестанского Государственного Университета. Серия 3. Общественные науки, 2019, Том 34, Вып. 2 səh. 27-33 (məqalə).<br>4. Fikrət Əfəndiyev. «Развитие понятия материи в физической картине мира» // Хуманитарны Балкански изследования. Том 3, № 4 (6), 2019,səh. 34-39 (məqalə).<br>5. Pərvin Həsənova. «İntuisiya qeyri-klassik rasionallığın komponenti kimi»// Хуманитарны Балкански изследования. Том 4, № 1 (7), 2020,səh. 77-80 (məqalə).<br>6. Nərminə Mikayılova «Творчество как движущая сила развития культуры» //Балканско научно обозрение,Том 4, № 4(10), 2020. səh. 44-50 (məqalə).<br>7. Nərminə Mikayılova To the question about the cultural dynamics of society. urnalul umanitar modern. 2020, volum 3, №3 (5) (məqalə). səh. 31-36<br>8. Nərgiz Məcidova. «Philosophical antropology in the context of the concept of sustainable development» // Jurnalul umanitar modern. 2020, volum 3, №3 (5) (məqalə).<br>9. Aygün Kərimova. “Memarlığın fəlsəfəsi”. Jurnalul umanitar modern. 2020. volum 3. №(5). seh 25/29. http://modern-hum-journal.org (məqalə). |

| | |
|---|---|
| | 10. Aygün Kərimova. “Kafkasiya İrfan Harekatında Eğitim Değerleri ; Seyyid Yahya Bakuvi ve Siraceddin Şirvani Örneği” Uluslararası Horasan’dan Anadolu’ya İrfan Geleneği: Elvan Çelebi Sempozyumu. 02-04 Oktyabr 2020-ci il. Türkiyə/Çorum (Beynəlxalq simpozium, tezis).<br>11. Aygün Kərimova. “Din Eğitiminin Azerbaycan Tarihinde Gelişim Süreci”. Uluslararası türk kültür ve sanatı Sempozyumu, 29-30 Oktyabr 2020-il, Türkiyə/Ankara (Beynəlxalq simpozium, tezis).<br>12. Aygün Kərimova. “Azərbaycan irfan ənənəsində eğitim”/təhsil. VI. Turkcess. 2020 Uluslararası eğitim ve sosyal bilimler kongresi. 30 ekim-01 kasım 2020. İstanbul (Beynəlxalq tezis). |
| **12** | **Tələbələrin və gənc tədqiqatçıların mövzu üzrə elmi-tədqiqata cəlb olunması haqqında**<br>*(layihələr, məqalələr, konfrans materialları)* |
| | |
| **13** | **Tələbələrin və gənc tədqiqatçılarınelmi məruzələri (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) haqqında**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | |
| **14** | **Elmi problem və ya mövzu üzrə qrant layihəsi**<br>**(***adı, donor təşkilatın adı, BDU-nun layihədəki payı, layihənin ümumi dəyəri göstərilməklə)* |
| | |
| **14** | **Mükafatlar və təltiflər haqqında(elmi fəaliyyətə görə)**<br>*(bütün məlumatlar nümunədə göstərilən qaydaya uyğun olmalıdır)* |
| | |

14

# STATİSTİK CƏDVƏL

| | **Sayı** |
|---|---|
| Xarici jurnalda dərc olunmuş məqalə | 9 |
| Yerli jurnalda dərc olunmuş məqalə | 9 |
| Beynəlxalq elmmetrik bazalarda indekslənmiş jurnallarda dərc olunmuş məqalə | |
| Beynəlxalq səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı | |
| Beynəlxalq səviyyəli elmi konfranslarda məruzə | |
| Respublika səviyyəli elmi konfranslarda çap olunmuş konfrans materialı | 1 |
| Respublika səviyyəli elmi konfranslarda məruzə | |
| Patent (beynəlxalq) | |
| Patent (Respublika) | |
| Qrant layihəsi (beynəlxalq) | |
| Qrant layihəsi (Respublika) | |
| Monoqrafiya | 1 |
| Dərslik və ya dərs vəsaiti | 3 |

**Stuktur rəhbəri____________________Əlizadə Hikmət Əbdül oğlu**

**Mövzunun rəhbəri_____________________Pənahova Kəmalə Həsən qızı**

**Tarix** ____________________